# THEORETICAL AND PRACTICAL ISSUES OF QUALITY ORGANIZATION OF PRESCHOOL EDUCATION

## (Analysis of the modern preschool education system in Azerbaijan)

**Lalazar Jafarova**

Institute of Education of the Republic of Azerbaijan,
PhD in pedagogy, associate professor
E-mail: l.cafarova@mail.ru
https://orcid.org/0000-0002-2620-2351

**Abstract.** The article examines the qualitative organization of the modern preschool education system in Azerbaijan. As it is known, preschool education is the first link to a continuous education system. Preschool education ensures the formation of a child with a healthy, developed personality, the creation of enthusiasm for learning, and preparation for systematic learning. Specific goals are set for this. In the context of the modernization of the education system, the main task of the state education policy in Azerbaijan is to ensure the quality of education, including modern preschool education. It is also noted that quality is the object's compliance with established standards. The quality of preschool education is a feature that expresses the degree of compliance with the state standard of preschool education (requirements for the structure of basic educational programs, conditions for their implementation, and results of their development). Thus, the state standard of preschool education is a guideline, a tool, and also a criterion for evaluating the state and development of the preschool education system.

**Keywords:** preschool education, new content, a pedagogical process, problem, developmental environment, integration, areas of development.

**DOI:** 10.30546/2709-2488.2.2023.19
**To cite this article:** Jafarova L. (2023). Theoretical and practical issues of quality organization of preschool education. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 19-28.
**Article history:** received – 20.04.2023; accepted – 22.05.2023.

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN KEYFİYYƏTLİ TƏŞKİLİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ

## (Azərbaycanda müasir məktəbəqədər təhsil sisteminin təhlili)

**Laləzar Cəfərova**

Azərbaycan Respublikası Təhsil İnstitutu,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: l.cafarova@mail.ru
https://orcid.org/0000-0002-2620-2351

**Annotasiya.** Məqalədə Azərbaycanda müasir məktəbəqədər təhsil sisteminin keyfiyyətli təşkili məsələləri araşdırılır. Məlum olduğu kimi, məktəbəqədər təhsil fasiləsiz təhsil sisteminin ilkin halqasıdır. Məktəbəqədər təhsil uşağın sağlam, inkişaf etmiş şəxsiyyət kimi formalaşmasını, öyrənməyə həvəsin yaradılmasını, onun sistemli öyrənməyə hazırlanmasını təmin edir. Bunun üçün qarşıya konkret məqsədlər qoyulur. Təhsil sisteminin modernləşdirilməsi kontekstində Azərbaycanda dövlət təhsil siyasətinin əsas vəzifəsi təhsilin, o cümlədən, müasir məktəbəqədər təhsilin keyfiyyətini təmin etməkdir. Həmçinin qeyd olunur ki, keyfiyyət – obyektin müəyyən edilmiş standartlara uyğunluğudur. Məktəbəqədər təhsilin keyfiyyəti məktəbəqədər təhsilin dövlət standartına (əsas təhsil proqramlarının strukturuna qoyulan tələblər, onların həyata keçirilməsi şərtləri, inkişafının nəticələri) uyğunluq dərəcəsini ifadə edən bir xüsusiyyətdir. Beləliklə, məktəbəqədər təhsilin dövlət standartı məktəbəqədər təhsil sisteminin vəziyyətini və inkişaf parametrlərini qiymətləndirmək üçün bir təlimat, bir vasitə, eyni zamanda meyardır.

**Açar sözlər:** məktəbəqədər təhsil, yeni məzmun, pedaqoji proses, problem, inkişafetdirici mühit, inteqrasiya, inkişaf sahələri.

**DOI:** 10.30546/2709-2488.2.2023.19
**Məqaləyə istinad:** Cəfərova L. (2023). Məktəbəqədər təhsilin keyfiyyətli təşkilinin nəzəri və təcrübi məsələləri. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 19-28.
**Məqalə tarixçəsi:** göndərilib – 20.04.2023; qəbul edilib – 22.05.2023.

## Giriş / Introduction

Müasir dövrdə təhsil iqtisadi inkişafı, sosial sabitliyi, vətəndaş cəmiyyətinin inkişafını təmin edən ən mühüm amillərdən birinə çevrilib. İnsan kapitalının toplanması dünyada, ölkədə, regionda davamlı iqtisadi inkişaf potensialı yaradır, bütövlükdə cəmiyyətin və ayrı-ayrılıqda hər bir insanın həyat keyfiyyətini yaxşılaşdırır, iqtisadi artımı, sosial sabitliyi, inkişafı təmin edən amillərdən biri kimi diqqət cəlb edir.

"Müasir dövrdə erkən uşaqlıq dövrünün təhsili və qayğısı bir çox ölkələrdə siyasət prioritetinə çevrilir" [Azərbaycan –2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər., 2021].

Getdikcə artan sosial və iqtisadi səmərəlilik, uşaq rifahının daha yaxşı əsası kimi, öyrənmə nəticələri də daxil olmaqla ömür boyu təhsil, daha ədalətli yanaşma, yoxsulluğun səviyyəsinin aşağı salınması və sosial mobilliyin artırılması üçün geniş spektrli səmərəliliyi təmin edir. Bu səmərəlilik birbaşa keyfiyyətlə bağlıdır. Keyfiyyətin səviyyəsi inanclardan, dəyərlərdən, ölkənin (və ya regionun) sosial-iqtisadi kontekstindən və istehlakçılar cəmiyyətinin ehtiyaclarından asılıdır.

Məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi problemi kifayət qədər aktual mövzudur. Məktəbəqədər təhsilin inkişafının müxtəlif mərhələlərində və səviyyələrində özündə əlaqələndirmə vəzifəsini ehtiva edən məktəbəqədər təhsil daim inkişaf edir, yenilənir.

## Əsas hissə / Main part

Bütün dövrlərdə olduğu kimi müasir zamanımızda da məktəbəqədər təhsil ümumtəhsildə mühüm mərhələ kimi qeyd olunur, onun keyfiyyəti isə sosial inkişafın mənbəyi kimi dəyərləndirilir. Ölkəmizdə bu baxış L.S.Vıgotskinin mədəni-tarixi nəzəriyyəsinin ənənələrinə əsaslanır. Bu görkəmli psixoloqun və onun ardıcıllarının əsərlərində (L.A.Venger, P.Ya.Galperin, V.V.Davıdova, O.M. Dyaçenko, A.V. Zaporojets və b.), uşaq şəxsiyyətinin formalaşmasının təhsilin keyfiyyətindən asılı olduğu inandırıcı şəkildə sübut edilmişdir. "Onu müxtəlif fəaliyyət növlərinə daxil etməklə məktəbəqədər təhsil müəssisələrinin mütəxəssisləri təkcə ona nəzarət etmir, həm də fiziki, zehni, sosial, emosional, estetik inkişafını təmin edirlər" [Safonov O., 2002].

Məhz bu kontekstdə məktəbəqədər təhsilin keyfiyyəti ilə bağlı rəy yaranır: məktəbəqədər müəssisədə təlim-tərbiyə prosesi nə qədər yaxşı təşkil edilərsə, uşaq nə qədər ahəngdar və uğurlu inkişaf edərsə, onun gələcəkdə daha yüksək

nailiyyətlər əldə etməsi mümkün olar. Azərbaycanda məktəbəqədər təhsil elmi bazaya, tərbiyəçi-müəllimlərin peşəkarlığına və təhsil ənənələrinə əsaslanır. Həmçinin keyfiyyətin təmin edilməsi prosesində bir məktəbəqədər təhsil müəssisəsində əldə edilən nailiyyətlər digər müəssisələrin işçiləri üçün də əlçatan olur. Dəyişikliklər şəraitində innovasiyaların bir qurumdan digərinə belə "axını" təhsil sistemini çox çevik edir.

Məktəbəqədər təhsil uşağın inkişafında sosial münasibətlərin subyekti kimi, onun sonrakı uğurlarını müəyyən edən mühüm amil rolunu oynadığı üçün erkən təhsilin keyfiyyətinin qiymətləndirilməsi vəzifəsi meydana çıxır. Bu vəziyyətdə sonuncu yalnız məktəbəqədər dövrə deyil, həm də bütövlükdə təhsilə aid olmaqla uşaqların fəaliyyətini yaxşılaşdırmaq üçün bir vasitə hesab olunur.

*Müasir məktəbəqədər təhsilin keyfiyyət meyarları* üzrə qiymətləndirilməsi Konsepsiyada əldə edilmiş faktiki təhsil nəticələrinin və təhsil prosesinin normativ tələblərə, təhsil sisteminin sosial və şəxsi gözləntilərin təmin edilməsi şərtlərinə uyğunluq dərəcəsini əks etdirən xarakteristikası kimi başa düşülür. *Məktəbəqədər təhsilin keyfiyyəti* anlayışı üç aspektdə təhlil olunur. Ümum*milli aspekt* nöqteyi-nəzərindən onu təhsilin sosial-iqtisadi şəraitə uyğunluq ölçüsü kimi müəyyən etmək olar. Bu zaman təhsilin keyfiyyəti xalqın yaşayış səviyyəsi, onun iqtisadi potensialı kateqoriyaları ilə əlaqələndirilir.

*Sosial aspekt* təhsil xidmətlərinin valideynlərin real səviyyəsinə, tələblərinə uyğunluğu ilə müəyyən edilir. Buna görə də deyə bilərik ki, məktəbəqədər yaşlı uşaqların ailə üzvlərinin onlardan məmnunluğu məktəbəqədər təhsilin keyfiyyətinin göstəricisi kimi çıxış edir [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası., 2013].

*Pedaqoji aspekt*, müvafiq olaraq, məktəbəqədər təhsilin keyfiyyətinin variativlik prinsipi əsasında həyata keçirilməsi, eləcə də tərbiyəçi-müəllimlə uşaqlar arasında şəxsiyyətyönümlü qarşılıqlı fəaliyyət, onların valideynləri ilə əməkdaşlığın qurulması ilə müəyyən edilir. *Keyfiyyət* anlayışı çoxşaxəlidir. Bu anlayış təhsildə qarşılıqlı münasibətlərin hər bir iştirakçısının nöqteyi-nəzərindən fərqli şərh oluna bilər.

Uşaqlar üçün məktəbəqədər təhsilin keyfiyyəti onun interaktivliyindən, oyunlar şəklində öyrənmədən asılıdır. Təhsil münasibətlərinin iştirakçısı olan valideynlər üçün bu, məktəbəqədər təhsil müəssisəsi tərəfindən göstərilən təhsil xidmətlərindən, uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi, təlim uğurundan məmnunluqdan asılıdır.

Pedaqoqlar üçün "təhsilin keyfiyyəti" dedikdə aşağıdakılar nəzərdə tutulur:

– tərbiyəçi-müəllimlərin pedaqoji fəaliyyətinin müsbət qiymətləndirilməsi;

– uşaqlar və onların valideynləri ilə qarşılıqlı əlaqənin metod, üsul və formalarının optimal seçimi;

– məktəbəqədər təhsilin əsas təhsil proqramının həyata keçirilməsi üçün, tələblərə və hədəflərə uyğun olaraq, uşaqların uğurlu inkişafı;

– məktəbəqədər yaşlı uşaqlarla işin prioritet istiqamətlərindən biri kimi, uşaqların fiziki və psixi sağlamlığının qorunması və möhkəmləndirilməsi;

– iş vaxtından səmərəli istifadə;

– təlim prosesinin lazımi avadanlıqla, metodik vəsaitlərlə, didaktik materiallarla və s.təmin edilməsi [Belaya K.Yu., 2005].

Məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətini aşağıdakı əsaslar müəyyən edir:

– valideynlər tərəfindən tərbiyəçi-müəllimlərin fəaliyyətinə yüksək qiymət verilməsi və müəssisənin nüfuzunun artırılması;

– uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi;

– təlim prosesinin bütün iştirakçılarının iş vaxtından səmərəli istifadə etmələri;

– tərbiyəçi-müəllimlər tərəfindən seçilmiş məzmunun uşaqlar tərəfindən tam mənimsənilməsi, onların məktəbəqədər təhsil proqramına uyğunluğu, uşaqların məktəbəqədər təhsil müəssisəsinin fəaliyyət göstərdiyi proqrama uyğun, habelə məktəb təliminə keyfiyyətli hazırlanması.

Məktəbəqədər təhsil müəssisələrində məktəbəqədər təhsilin keyfiyyətinin qiymətləndirilməsi hər bir mərhələnin öz qiymətləndirmə obyektinə malik olan və çoxsəviyyəli yanaşmanın tətbiqini nəzərdə tutan sistem kimi nəzərdən keçirilir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT– OECD) 23/01/2012-ci il hesabatına əsasən, hər bir ölkə uşaqların təlimi və inkişafının səmərəli təşkili üçün erkən uşaqlıq təhsili və qayğısında keyfiyyət standartları və məqsədləri (EUDİ) müəyyən etməlidir. İƏİT-nin baş katibi Xose Anxel Qurria Parisdəki çıxışında vurğulamışdı ki, "insan kapitalına sərmayə qoymaq təhsili təşviq etmək və uşaqlar arasında bərabərsizliklə mübarizə aparmaq üçün vacibdir. İnsanlara sərmayə erkən uşaqlıq dövründən başlamalı, formal təhsilə və işə keçilməlidir".

Həmçinin İƏİT-nin təhsil üzrə direktoru Barbara İşinqer Norveçin Oslo şəhərində keçirilən yüksək səviyyəli dəyirmi masada müzakirələr zamanı "Erkən uşaqlıq təhsili və inkişafı (EUDİ) geniş faydalar gətirə bilər, lakin faydaların böyüklüyü keyfiyyətdən asılıdır" söyləmişdir. "Keyfiyyətə diqqət yetirmə dən xidmətlərə çıxışın genişləndirilməsi uşaqlar üçün yaxşı nəticələr və ya cəmiyyət üçün uzunmüddətli məhsuldarlıq faydaları gətirməyəcək. Həqiqətən də, araşdırmalar göstərdi ki, keyfiyyət aşağı olarsa, müsbət təsirlər gətirmək əvəzinə, uşağın inkişafına uzunmüddətli zərərli təsirlər göstərə bilər" [Şvaynhart L., 2006].

Həmin hesabatda "Starting Strong" III beynəlxalq araşdırmaları nəticəsində EUDİ-də keyfiyyətin təşviqində təsirli olduğu müəyyən edilən beş istiqamət təqdim edilir:

1. *Keyfiyyətə xidmət edən məqsədlərin və qaydaların müəyyən edilməsi.* Aydın keyfiyyət məqsədləri və qaydaların müəyyən edilməsi resursların prioritet sahələrlə uyğunlaşdırılmasına, uşaq mərkəzli xidmətlərin daha keyfiyyətli koordinasiya olunmasına, provayderlər (təchizatçılar) üçün oyun meydançasının bərabərləşdirilməsinə və valideynlərə müvafiq seçimlər etməyə kömək edə bilər.

2. *Kurikulumun və standartların işlənib hazırlanması və tətbiqi.* Kurikulum və ya təlim standartları müxtəlif şəraitlərdə EUDİ təminatının keyfiyyətini təmin edə, işçilərə öz strategiyalarını təkmilləşdirməyə, valideynlərə uşağın inkişaf problemlərini daha yaxşı başa düşməyə kömək edə bilər.

3. *İxtisasların, təlimlərin və iş şəraitinin təkmilləşdirilməsi.* Məktəbəqədər təhsil işçiləri uşağın sağlam inkişafı və təliminin təmin edilməsində əsas rol oynayırlar. İslahat sahələrinə ixtisaslar, səriştəlilik, peşəkar inkişaf və iş şəraiti daxildir.

4. *Ailələri və icmaları cəlb etmək.* Valideynlər və icmalar eyni məqsəd uğrunda çalışan tərəfdaşlar kimi qəbul edilməlidir. Evdə təhsil mühiti və ətraf mühit uşağın sağlam inkişafı və öyrənməsi üçün vacibdir.

5. *Məlumatların toplanması, tədqiqat və monitorinqin təkmilləşdirilməsi.* Məlumat, araşdırma və monitorinq uşaqların nəticələrini yaxşılaşdırmaq və xidmətlərin göstərilməsində davamlı təkmilləşməyə təkan vermək üçün güclü vasitədir [Miho Taguma., Ineke Litjens and Kelly Makowiecki., 2012].

**Məktəbəqədər təhsilin keyfiyyəti məktəbəqədər təhsil müəssisələrinin səmərəli fəaliyyətinin göstəricisi kimi**. Məktəbəqədər Təhsil Sahəsində Tədqiqat və İnkişaf İnstitutunun (PadQUIS) (Almaniya) təsisçisi və direktoru, professor, dr. V.Titzenin sözlərinə görə, məktəbəqədər təhsil müəssisəsinə gedən hər bir uşağın qabiliyyətlərini, istedadlarını, fərdi inkişaf imkanlarını nəzərə alaraq, uşaqlara indiki və gələcək çətinliklərin öhdəsindən gəlmək bacarıqları öyrədilərsə, onların bütün vacib sahələrdə (idrakın inkişafı, sosial, emosional və s.) potensialları üzə çıxarılarsa, o zaman daha yaxşı nəticələr əldə oluna bilər.

Məktəbəqədər təhsilin keyfiyyəti məktəbəqədər təhsil müəssisəsində dörd blokdan ibarət monitorinq obyektidir:

1) elementləri məzmunu ifadə edən təhsil prosesinin keyfiyyəti, müəssisə, uşaqlar, tərbiyəçi-müəllimlər və onların qarşılıqlı əlaqəsi;

2) resurs təminatı (təlim prosesi üçün zəruri olan resurslar və şərait);

3) idarəetmə;

4) məktəbəqədər təhsil müəssisələrində təhsil sisteminin işinin nəticələri [Safonov O.A., 2002].

Məktəbəqədər təhsilin keyfiyyətinin qiymətləndirilməsi prosedurlarına aşağıdakılar daxildir:

– təhsil müəssisəsinin özü tərəfindən həyata keçirilən daxili keyfiyyətin qiy-

mətləndirilməsi;

– təsisçi, nəzarət orqanları, peşəkar və müstəqil ekspertlər tərəfindən həyata keçirilən keyfiyyət qiymətləndirməsi.

Məktəbəqədər təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin təşkilində məqsəd məktəbəqədər təhsil müəssisəsində onun keyfiyyətinin məktəbəqədər təhsilin dövlət standartlarına uyğunluğunu müəyyən etməkdir.

Təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin predmeti aşağıdakılardan ibarətdir:

– MTDS-nın (Məktəbəqədər təhsilin dövlət standartı) həyata keçirilməsi üçün şəraitin keyfiyyəti;

– təlim prosesinin təşkili;

– MTDS əsasında bilik və bacarıqların mənimsənilməsinin nəticələri.

Təlim fəaliyyətinin təmin edilməsi üçün vacib olan şərtlər bunlardır:

– maddi-texniki baza;

– kadr təminatı;

– təlim-tərbiyə metodları, təlim texnologiyaları;

– uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinin, düzgün qidalanmanın təşkili;

– elmi-metodik iş;

– maliyyə və psixoloji-pedaqoji dəstəyin təmin edilməsi;

– inkişafetdirici əşyavi-məkan mühiti.

Təhsil fəaliyyətini təmin edən proseslərə aşağıdakılar daxildir:

– təlim prosesinin təşkilinin keyfiyyəti;

– fasiləsiz təlim fəaliyyəti, rejim anları və uşaqlarla fərdi iş;

– təlimin məzmununun MTDS-a uyğunluğu;

– valideynlərin istəyi ilə əlavə təhsil proqramları.

*Pedaqoji diaqnostika.* Məktəbəqədər təhsil müəssisələrində uşaqların fərdi inkişafının pedaqoji diaqnostikası uşağın güclü və zəif tərəflərini aşkar etməyə imkan verir, çox vacib olan fərdi təhsil proqramının qurulmasına kömək edir.

Diaqnostik işin məqsədi yaxşı təşkil olunmuş təhsil şəraitində uşaqların nailiyyətlərinin keyfiyyət göstəricilərini öyrənməkdir. Vəzifələr aşağıdakılardan ibarətdir:

– fəaliyyət növlərinin inkişafında uşağın inkişaf səviyyəsini öyrənmək;

– hər bir uşağın fərdi inkişaf səviyyəsi haqqında obyektiv təsəvvür yaratmaq;

– hər bir uşağın inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək və zəruri hallarda uşaq şəxsiyyətinin potensialını maksimum dərəcədə artırmaq üçün təlim prosesinin fərdi proqramını hazırlamaq.

Pedaqoji diaqnostika uşaqların spontan və xüsusi təşkil olunmuş fəaliyyətlərdə fəallığının müşahidəsi zamanı, monitorinq formasında həyata keçirilir. Belə

diaqnostikada istifadə olunan alətlər hər bir uşağın fərdi inkişaf dinamikasını və perspektivlərini qeyd etməyə imkan verən müşahidə kartlarıdır.

Pedaqoji diaqnostikanın aparılması üçün xüsusi şərtlər aşağıdakılardan ibarətdir:

– metodların və pedaqoji texnologiyaların seçilməsi, onların məzmunu ilə tərbiyəçi-müəllimlərin tanış edilməsi;

– proqram həyata keçirildikcə uşağın fərdi inkişaf dinamikasını müəyyən edən monitorinq zamanı əldə edilmiş nəticələrin qeydə alınması, təhlili və saxlanması üçün vasitələrin hazırlanması;

– pedaqoji diaqnostikanın aparılması üçün didaktik materialların seçilməsi.

Məktəbəqədər təhsilin keyfiyyəti onun xüsusiyyətlərinin elə bir məcmusudur ki, onun təhsil fəaliyyəti zamanı həyata keçirilməsi uşağın yaş imkanlarına müvafiq səviyyəyə, hərtərəfli inkişafına, sağlamlığının qorunmasına, müvəffəqiyyətini təmin etməyə və növbəti yaş dövrünə keçidə kömək edir.

## Nəticə / Conclusion

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətli təşkili dövlətin, cəmiyyətin və fərdin ehtiyaclarını ödəmək, məktəbəqədər yaş dövründə uşağın inkişafı üçün şərait yaratmaqla bağlı məktəbəqədər təhsil müəssisəsinin fəaliyyət xüsusiyyətlərinin məcmusu kimi qəbul edilə bilər.

Məktəbəqədər təhsilin keyfiyyəti təhsildə əldə olunan real nəticələrin normanın tələblərinə uyğunluq səviyyəsini əks etdirir. Təhsilin keyfiyyəti ayrı-ayrı göstəricilərdən (şəxsi göstəricilər, proqramlar, texnologiyalar, vasitələr və s.) yaranmış inteqral anlayış kimi təqdim edilir.

Qeyd olunduğu kimi, məktəbəqədər təhsilin keyfiyyətinə təsir edən əsas amillər arasında aşağıdakılar müəyyən edilmişdir: məktəbəqədər təhsilin əlçatanlığı; məktəbəqədər müəssisələrin binaları; məktəbəqədər müəssisələrin uşaqların yaşayış yerlərinə məkanca yaxınlığı; məktəbəqədər müəssisələrin kadr potensialı; sağlamlıq imkanları məhdud olan uşaqların keyfiyyətli təhsilə sağlam uşaqlarla bərabər çıxışı üçün şəraitin yaradılması. Bütün bu sadalananlar məktəbəqədər təhsilin keyfiyyətinə müəyyən qədər təsir göstərir.

Nəticədə qeyd etmək lazımdır ki, məktəbəqədər təhsilin keyfiyyətinin qiymətləndirilməsi sistemi məktəbəqədər yaşlı uşaqların inkişafına, idraki və intellektual hazırlığına, onların nailiyyətlərinin qiymətləndirilməsinin obyektivliyinə, məktəbəqədər təhsil dövründən ibtidai təhsil dövrünə problemsiz keçidin təmin olunmasına verilən tələblərin vəhdətini təmin etmək üçün nəzərdə tutulub. Bundan əlavə, məktəbəqədər təhsilin keyfiyyətinin dərk edilməsinə vahid yanaşma təhsil sisteminin bütün subyektlərinin fəaliyyət ardıcıllığını təmin edəcəkdir.

**Məqalənin aktuallığı.** Məlum olduğu kimi, bütün dövrlərdə məktəbəqədər təhsilin keyfiyyəti aktual problem olmuşdur. Məktəbəqədər təhsil uşağın sağlam, inkişaf etmiş şəxsiyyət kimi formalaşmasını, sistemli şəkildə təhsil almağa hazırlaşmasını, onda öyrənməyə həvəs yaranmasını təmin edir. Məktəbəqədər təhsil müəssisələrində işlər elə qurulmalıdır ki, cəmiyyətin tələblərinə cavab versin, məktəbəqədər dövrün unikallığının qorunmasını təmin etsin. Hər bir məktəbəqədər müəssisənin müasir dövrün tələblərinə nə dərəcədə cavab verdiyini sübut etməsi ilk növbədə, təlim prosesinin yüksək keyfiyyəti ilə əldə edilir. Müasir elmi yanaşmalar nöqteyi-nəzərindən təhsilin keyfiyyəti təhsil prosesinin meyarlarının məcmusu və bu prosesin nəticələri ilə xarakterizə olunur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə son illərdə respublikanın məktəbəqədər təhsil sistemində baş verən əsaslı dəyişikliklərdən, bu sistemin təkmilləşdirilməsi və inkişaf etdirilməsindən, məktəbəqədər təhsilin keyfiyyət göstəricilərindən, müşahidə olunan yeniliklərdən (uşaqların məktəbə hazırlanmaları, onların sadə əmək bacarıqlarına yiyələnmələri, istedad və qabiliyyətlərinin aşkar edilməsi, həyati qabiliyyətlərinin formalaşması, pedaqoji prosesdə sosiallaşma imkanlarının genişlənməsi və s.) bəhs olunur. Qeyd edilir ki, yeniliklərin əsas göstəriciləri yeni yaranmış ənənələr və əldə olunmuş təcrübədir. Bu, məktəbəqədər təhsilin inkişafında yeni və mütərəqqi bir başlanğıc hesab olunur. Həmçinin məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərin qarşısında qoyulan tələblərin dəyişdiyi, tələbkarlığın səviyyəsinin yüksəldiyi qeyd olunur.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada məktəbəqədər təhsil proqramlarında qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi proqramın məcburi minimum məzmununu, məktəbəqədər təhsil müəssisələrinin uşaqları üçün təlim yükünün maksimum səviyyəsi və onların inkişaf səviyyəsinə dövlət tərəfindən müəyyən edilən tələblərin müəyyənləşdirilməsini və keyfiyyətli məktəbəqədər təhsili təmin edir. Məqalə məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçi-müəllimlər, bu sahədə tədqiqat aparan elmi işçilər, bu ixtisas üzrə təhsil alan tələbələr üçün istiqamətverici tövsiyə ola bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan –2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021). 02 fevral.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). 24 oktyabr.
3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. (2009). Bakı şəhəri, 5 sentyabr, № 156.
4. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər). (2007). Bakı şəhəri, 12 aprel, № 2089.
5. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı. (2019). Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 08 avqust.
6. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. (2017). Bakı şəhəri, 16 iyun.
7. Schweinhart, L. (2006). “Preschool Programmes”, Encyclopedia on Early Childhood Development, Centre of Excellence for Early Childhood Development and Strategic Knowledge Cluster on Early Child Development, Montreal.
8. Heckman J.J., S.H. Moon, R. Pinto, P.A. Savelyev and A. Yavitz. (2009). “The Rate of Return to the HighScope Perry Preschool Program”, Journal of Public Economics, Vol. 94, No. 1-2, pp. 114-128
9. Miho Taguma, Ineke Litjens and Kelly Makowiecki. (2012). Quality Matters in Early Childhood Education and Care: United Kingdom (England), (106 pp).
10. Belaya K.Yu. Rukovodstvo DOU: kontrolno-diagnosticheskaya funkchiya [Tekst] / K.Yu. Belaya – M.: TTS «Sfera», 2005.–64 c. ISBN5-89144-360-0.
11. Safonov O.A. (2002). Kachestvo doshkolnogo obrazovaniya: sostoyaniye, problemi, perspektivi [Tekst]: materiali vserossiyskoy konferentsii v Sankt-Peterburge. – M.: Izdatelstvo «GNOM i D». – 240 c. ISBN5-296-00290-3.